# 31 MAY- 3 İYUN 2023 BAKU ENERGY WEEK



CASPIAN OIL&GAS

www.cog.az

CASPIAN POWER

www.caspianpower.az

BAKU ENERGY FORUM

www.bakuenergyforum.az

**www.bew.az**

Təşkilatçılar:

Iteca Caspian · ceo caspian event organisers · ica · caspian event management

# BAKU ENERGY WEEK

## BAKI ENERJİ HƏFTƏSİ ÖZ BRENDİ ALTINDA 3 ƏSAS TƏDBİRİ BİRLƏŞDİRDİ - 28-Cİ XƏZƏR NEFT VƏ QAZ BEYNƏLXALQ SƏRGİSİ – "CASPİAN OİL&GAS", 11-Cİ XƏZƏR BEYNƏLXALQ ENERGETİKA VƏ YAŞIL ENERJİ SƏRGİSİ – "CASPİAN POWER" VƏ 28-Cİ BAKI ENERJİ FORUMU.

CASPIAN OIL&GAS

"Caspian Oil&Gas" -
sərgisi neft, qaz və energetika sahəsində aparıcı mütəxəssislərin görüş yeridir və burada gələcək əməkdaşlığa dair memorandumlar, sazişlər və müqavilələr imzalanır.
Sərgi və konfransın iştirakçılarının siyahısına dünyanın neft və enerji sektorunun aparıcı şirkətləri daxildir.

CASPIAN POWER

"Caspian Power" -
sərgisi enerji istehsalçıları, dövlət qurumları və xarici investorlar üçün unikal görüş yeridir və burada əməkdaşlıq və uzunmüddətli tərəfdaşlıq üçün qeyri-məhdud imkanlar açılır.

# BAKI ENERJİ HƏFTƏSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ




**31 may 2023-cü il tarixində Bakı Ekspo Mərkəzində keçirilmiş Bakı Enerji Həftəsinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışından bir hissə.**

"Hörmətli xanımlar və cənablar.
Hörmətli qonaqlar.

Bakı Enerji Həftəsinə xoş gəlmisiniz. Əvvəlcə bu mühüm tədbirin təşkilatçılarına öz təşəkkürümü bildirirəm. Artıq qeyd edildiyi kimi, 30 ildir - 1994-cü ildən etibarən Xəzər neft-qaz sərgisi Azərbaycana öz potensialını beynəlxalq investorlara təqdim etməyə imkan yaradır. Biz 1994-cü ildə neft strategiyamızın - Ulu Öndər Heydər Əliyevin neft strategiyasının astanasındaydıq. Bu il biz müasir Azərbaycanın yaradıcısı Ulu Öndərin 100 yaşını qeyd edirik. 1994-cü ildə ilk neft-qaz sərgisi keçirildi və həmin il məhz "Əsrin müqaviləsi" imzalandı ki, o, ölkəmizdə vəziyyəti kökündən dəyişdi, sərmayələr cəlb edildi, geniş iqtisadi sabitlik təmin olundu və əlbəttə ki, Azərbaycanın firavan gələcəyinin təməli qoyuldu.
Xəzər neft-qaz sərgisi 1994-cü ildə təşkil edildə ilk tədbir idi ki, Azərbaycanı dünyanın beynəlxalq enerji ictimaiyyətinə təqdim etdi. Biz təşkilatçılara davamlı dəstəyə görə təşəkkür edirik, eyni zamanda, onu da vurğulamaq istəyirəm və hesab edirəm ki, Bakı Enerji Həftəsi enerji sahəsində aparıcı beynəlxalq tədbirdir. Mənim sözümün təsdiqi o ola bilər ki, kimlər bu tədbirə öz məktublarını ünvanlayır – ABŞ Prezidenti Co Bayden və Böyük Britaniyanın Baş naziri Sunak. Bu, onun göstəricisidir ki, bizim bu tədbir qlobal əhəmiyyətə malikdir."

# BAKI ENERJİ HƏFTƏSİNİN RƏSMİ QONAQLARI



**Cefri Payat**
Amerika Birləşmiş Ştatları Dövlət Katibinin
Enerji Ehtiyatları üzrə köməkçisi
(Amerika Birləşmiş Ştatları)



**Baronessa Emma Nikolson**
Böyük Britaniya Baş nazirinin
Azərbaycan üzrə ticarət elçisi
(Böyük Britanıya Və Şimalı İrlandiya Birləşmiş Krallığı)



**Kristina Lobillo Borrero**
Enerji siyasəti strategiyası
və koordinasiya üzrə direktoru
(Avropa Komissiyası)



**Virgil-Daniel Popesku**
Energetika naziri
(Rumınıya)



**Jozef Sikela**
Sənaye və Ticarət naziri
(Çex Respublikası)



**Konstantin Borosan**
Energetika Nazirliyinin dövlət katibi
(Moldova Respublikası)



**Peter Sztaray**
Xarici İşlər və Ticarət Nazirliyinin Təhlükəsizlik
Siyasəti üzrə Dövlət naziri
(Macarıstan)



**Romeo Mikautadze**
Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf
nazirinin birinci müavini
(Gürcüstan)



**Qay Lents**
Beynəlxalq Enerji Xartiyasının
baş katibi



**Musadik Malik**
Neft üzrə dövlət naziri
(Pakistan İslam Respublikası)



**Lin Şanqinq**
Milli Enerji Administrasiyasının Vitse-Administratoru
(Çin Xalq Respublikası)



**Viktor Zubkov**
Gazprom İdarə heyətinin sədri,
Rusiya Federasiyasının Prezidentinin Qaz İxrac edən
Ölkələrin Forumu üzrə xüsusi nümayəndəsi
(Rusiya Federasiyası)



**Qeorq Çikovani**
JSC Georgian Oil and Gas Corporation şirkətinin,
baş direktoru
(Gürcüstan)



**Baxodirjon Sidikov**
"UzbekNefteqaz" İdarə Heyətinin sədri
(Özbəkistan Respublikası)



**Veselina Laçezarova Kanatova-Buçkova**
Bolqar Enerji Holdinqin Direktorlar Şurasının sədri
və üzvü
(Bolqarıstan Respublikası)



**Saltuk Düzyol**
TANAP-ın
baş icraçı direktoru



**Stepan Qurjiy**
LUKOIL PJSC-nin Mərkəzi Asiya
və Xəzər regionu üzrə vitse-prezidenti
(Rusiya Federasiyası)



**Sergey Koçkurov**
LUKOIL PJSC-nin Rusiyada neft
və qaz hasilatı üzrə vitse-prezidenti
(Rusiya Federasiyası)



**Mikayıl Cabbarov**
Azərbaycan Respublikasının
İqtisadiyyat Naziri



**Pərviz Şahbazov**
Azərbaycan Respublikasının
Energetika Naziri



**Muxtar Babayev**
Azərbaycan Respublikasının ekologiya
və təbii sərvətlər naziri



**Şahmar Mövsümov**
Azərbaycan Respublikası
Prezidentinin köməkçisi



**Rövşən Nəcəf**
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin
1-ci Vitse-prezidenti



**Xoşbəxt Yusifzadə**
SOCAR-ın birinci vitse-prezidenti



**Qordon Birrell**
bp-nin hasilat və əməliyyatlar üzrə
icraçı vitse-prezidenti



**Qəri Counz**
BP-nin Azərbaycan, Gürcüstan
və Türkiyə üzrə regional prezidenti



**Metyu Brayza**
Ceymstaun Fondunun
İdarə Heyətinin üzvü



**Peter Mixalko**
Avropa İttifaqının
Azərbaycan Respublikasındakı səfiri

# SALAMLAMA MƏKTUBLARI



**ABŞ Prezidenti Cozef Baydenin Bakı Enerji Həftəsinin iştirakçılarına və qonaqlarına ünvanlandığı salamlama məktubunu ABŞ Dövlət katibinin köməkçisi Cefri Pyatt oxuyub.**

"Hörmətli cənab Prezident,

Bakıda Beynəlxalq Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi bir vaxtda Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram. 30 ildən artıq bir dövrdə Azərbaycan və Amerika Birləşmiş Ştatları transmilli təhlükələrlə mübarizədən inklüziv iqtisadi inkişafa qədər möhkəm tərəfdaşlıq yaradıb.
Bu tədbir ölkələrimizin təhlükəsiz və təmiz enerji ilə bağlı gələcəyə birgə sadiqliyini vurğulayır. Azərbaycan bu səylərin həyata keçirilməsində vacib rol oynayır. Azərbaycan təhlükəsiz enerji təchizatına olan tələbatın ödənilməsinə yardım etməkdədir – buraya Cənub Qaz Dəhlizi daxil olmaqla, Orta Dəhlizin inkişafı və enerji çevikliyini gücləndirən enerjinin şaxələndirilməsinin artırılması daxildir. Qlobal iqlim məqsədlərinə nail olmaq üçün Azərbaycanın səyləri, o cümlədən bərpaolunan enerjinin inkişafının artırılmasına və enerji səmərəliliyinin gücləndirilməsinə dair təşəbbüslər məni sevindirir.
Bu tədbirlərin, habelə qanunun aliliyinin təşviqinin və Azərbaycan xalqı üçün imkanların artırılmasına yönəlmiş islahatların həyata keçirildiyi dönəmdə ABŞ yanınızda olacaqdır. Bununla yanaşı, biz gələcək nəsillər üçün Cənubi Qafqazda sülhün və rifahın təşviqinə kömək göstərəcək ədalətli və dayanıqlı sülhü dəstəkləməyə davam edəcəyik.
Gələn illər ərzində davamlı əməkdaşlığımızı səmimiyyətlə arzulayıram."

# SALAMLAMA MƏKTUBLARI



**Böyük Britaniyanın Baş naziri Rişi Sunakın Bakı Enerji Həftəsinin iştirakçılarına və qonaqlarına ünvanlandığı salamlama məktubunu Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson oxuyub**

"Hörmətli Prezident Əliyev,

Sizə Bakı Enerji Həftəsi ilə bağlı ən xoş arzularımı çatdırıram. İqlim dəyişikliyi ilə mübarizə və enerji təhlükəsizliyinin gücləndirilməsi kimi iki aktual çağırışın olduğu vaxtda Bakı Enerji Həftəsinin dövlət və özəl sektoru təmsil edən beynəlxalq düşüncə liderlərini bir araya gətirməsi heç vaxt olmadığı qədər önəmlidir. Etibarlı enerji tərəfdaşı olan Azərbaycan qlobal enerji müstəvisində vacib rola malikdir. Azərbaycanın 2027-ci ilədək Avropaya nəql ediləcək təbii qazın həcminin 20 milyard kubmetrə qədər artırılması məsələsinə sadiqliyi artıq Avropanın enerji təhlükəsizliyinə töhfə verməkdədir. Təchizatın şaxələndirilməsi enerjinin Rusiya tərəfindən geosiyasi silah kimi istifadəsinə son qoyulması baxımından əhəmiyyətlidir.
Mən, həmçinin Azərbaycanın nəhəng bərpaolunan enerji potensialının inkişaf etdirilməsi və yaşıl enerjinin ixracatçısına çevrilməsi istiqamətindəki səylərinizi alqışlayıram. Bu məqsədlərə nail olmaq üçün enerjinin ötürülməsi sahəsində avropalı tərəfdaşlarla əməkdaşlıq əhəmiyyətli olacaqdır. Azərbaycandan Avropaya bərpaolunan elektrik enerjisinin nəqlini hədəfləyən Cənub Qaz Dəhlizinin Yaşıl Enerji və Qara dəniz sualtı kabel layihəsi üzrə ilk Məşvərət Şurasının yaradılması xüsusilə ümidvericidir. Ötən iki il ərzində Birləşmiş Krallıq imkanların artırılması və maariflənmə proqramları vasitəsilə Azərbaycanın enerji keçidini dəstəkləmişdir.
Bu təşəbbüslər Azərbaycanın daha dayanıqlı enerji gələcəyinin təmin edilməsi ilə yanaşı, iqlim dəyişikliyinin təsirinə qarşı çevikliyini gücləndirəcəkdir. Biz belə təşəbbüslərin bəzilərinin vacib elementlərini özündə əks etdirən yeni nəşri Bakı Enerji Həftəsi çərçivəsində təqdim edəcəyik. Nəşrdə enerji keçidi ilə bağlı müəyyən çağırışların öhdəsindən gəlmək üçün Britaniya şirkətlərinin Azərbaycana hansı köməyi göstərə biləcəyi işıqlandırılacaqdır. Bu fürsətdən istifadə edərək, təmiz enerjiyə keçid və iqlim dəyişikliyi ilə mübarizə sahəsində kollektiv səylərimizin sürətləndirilməsi məqsədilə Birləşmiş Krallığın enerji sektorunda Azərbaycan və beynəlxalq tərəfdaşlarla birgə işləməyə sadiqliyini bir daha vurğulayıram. Bakı Enerji Həftəsinin kifayət qədər uğurlu olacağına ümidvaram."

# SALAMLAMA MƏKTUBLARI



## Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru xanım Kristina Lobillo Borreronun Bakı Enerji Həftəsinin iştirakçılarına və qonaqlarına ünvanlandığı salamlama məktubu

"Hörmətli Zati-aliləri cənab Prezident Əliyev.
Bakı Enerji Həftəsinin iştirakçıları, hamınızı salamlayıram.
Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun adından və şəxsən öz adımdan bizim üçün çox mühüm hadisə olan Bakı Enerji Həftəsinə yenidən dəvətə görə Sizə təşəkkür etmək istərdim.
Prezident Ursula Fon der Lyayen Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlıq müqaviləsini imzalamaq üçün ötən ilin iyul ayında Bakıda səfərdə olub. Komissar Simson isə fevral ayında səfər etmişdi, Cənub Qaz Dəhlizi Məşvərət Şurası və Yaşıl Enerji Məşvərət Şurasının (Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında) iclasında iştirak etmişdi. Nazir Pərviz Şahbazov isə yüksək səviyyəli enerji dialoqumuz üçün bu ayın əvvəlində Brüsseldə səfərdə olmuşdur.
Qazın Azərbaycandan Avropaya 2020-ci ildə Cənubi Qaz Dəhlizi vasitəsilə nəql olunmasına başlanıb və Azərbaycan artıq etibarlı enerji tərəfdaşına çevrilib. Keçən ilin əvvəlində Rusiyanın Ukraynaya genişmiqyaslı müdaxiləsi, əlbəttə ki, enerji bazarımızın əsaslarını dəyişmiş və Avropanın enerji sistemində böyük dəyişikliklərə səbəb olmuşdur. Keçən il biz enerji böhranının aradan qaldırılması üçün bir sıra tədbirlər gördük. Biz bunların sırasına qaz anbarlarımızın məcburi doldurulmasını, qaz istehlakının könüllü olaraq azaldılmasını da daxil etdik və ilk dəfə olaraq qazın birgə alınmasına keçdik. Biz, həmçinin 70 milyard kubmetrdən çox Rusiya qazını əvəz edərək qaz tədarükçülərimizi şaxələndirmişik.
Yaşadığımız çətin dövrlərdə Azərbaycan keçən il Avropa İttifaqı bazarına qaz tədarükünü 40 faiz artırdı. Bu, enerji böhranından yan ötmək və Rusiya yanacaqlarından imtina etmək üçün önəmli tədbir idi. Həmçinin qaz ticarətimizin ikiqat artırılması baxımından Cənub Qaz Dəhlizinin genişləndirilməsini alqışlayırıq. Biz bu qazın son istifadəçilərinə çata bilməsi üçün Avropa İttifaqının daxilində infrastrukturumuzu inkişaf etdiririk. Amma bizim ikitərəfli işimiz təkcə böhranın idarə edilməsindən ibarət deyil. Söhbət, eyni zamanda, Cənubi Qafqaz və Avropa İttifaqı arasında "Yaşıl enerji dəhlizi" layihəsindən başlayaraq gələcək iqtisadiyyatlarımıza doğru yol cızmaqdan gedir. Bu flaqman layihələri olaraq təqdim edilib. Eyni zamanda, Şərq Tərəfdaşlığı məkanında önəmli layihəyə çevrilir, həmçinin qlobal çağırışdır. Bu baxımdan əməkdaşlıq üçün böyük imkanlar var. Bu, həqiqətən də mümkündür. Bunu reallığa çevirmək imkanımız var.
Biz həm Azərbaycanda, həm də Avropa İttifaqında enerji təhlükəsizliyini gücləndirmək, bərpaolunan enerji sərmayəsini açmaq və uzun müddət ərzində bazarlarımızda ticarəti təşviq etmək öhdəliyimizə sadiqik. Bu baxımdan Azərbaycanda elektrik enerjisi haqqında qəbul edilmiş yeni qanunu alqışlayırıq. Bizim tərəfimizdən Avropa İttifaqı qanunvericiləri bu yaxınlarda yeni enerji səmərəliliyi və bərpaolunan enerji tədbirləri, o cümlədən daha iddialı 2030-cu il hədəfləri ilə bağlı danışıqları tamamladılar. İqlim və enerji üzrə böyük iqtisadiyyatlar forumunun son iclasında Prezident Ursula Fon der Lyayen noyabr ayında Birləşmiş Millətlər Təşkilatının Dubayda keçiriləcək İqlim Dəyişikliyi Konfransı - "COP-28" ərəfəsində enerji səmərəliliyi və bərpaolunan enerji üçün qlobal hədəflər təyin edib. Bu baxımdan biz inanırıq ki, həmin məqsədə çatmaqda Azərbaycan da bizə dəstək olacaq. Əlbəttə ki, burada həm qaz tədarükünün artırılması, həm də yerli və beynəlxalq bazarlar üçün bu imkanlar olmalıdır. Bu baxımdan maarifləndirməyə və məlumatlandırmaya ehtiyac var. Biz də tənzimləyici çərçivə olaraq daha çox şəffaflığa nail olunması, emissiyaların azaldılması sahələrində və digər sahələrdə böyük işlər görürük. Biz Azərbaycan ilə bu istiqamətdə bərabər çalışmağa hazırıq.
Zati-aliləri, hörmətli səfirlər, nazirlər, xanımlar və cənablar, çıxışımın sonunda bir daha vurğulamaq istəyirəm ki, bizim Azərbaycanla bu istiqamətdə uzunmüddətli əməkdaşlığımız həqiqətən də çox əhəmiyyətli məsələdir. Bu, həm dayanıqlılıq və eyni zamanda, bərpaolunan enerjiyə tələbatın təmin olunması baxımından çox önəmlidir. Azərbaycan və digər beynəlxalq tərəfdaşlarla bir yerdə işləyərək enerji keçidimizi təmin etmək, eyni zamanda, sənaye əsaslarımızı gücləndirmək və iqtisadiyyatlarımızı iqlim neytrallığına yönəltmək önəmli vəzifədir."

# RƏSMİ QONAQLARIN ŞƏRHLƏRİ



Müstəqil ölkə kimi inkişafımızın və enerji müstəqilliyimizin banisi Ümummilli Lider Heydər Əliyevin neft strategiyası ilə həyata vəsiqə almış bu sərgi və beynəlxalq enerji əməkdaşlıq platforması Azərbaycanın enerji nailiyyətlərinin tarixi salnaməsinə çevrilmişdir.

**PƏRVİZ ŞAHBAZOV,**
Azərbaycan Respublikasının energetika naziri



Xəzər regionunda mühüm enerji məsələlərinin müzakirəsi üçün geniş imkanlar yaradan sərgi və forumlar ötən illər ərzində yeni enerji strategiyamızın davamlı nailiyyətlərinin dünya ictimaiyyətinə çatdırılması missiyasını da uğurla icra edib.
İnanıram ki, beynəlxalq enerji şirkətlərini, neft-qaz və energetika mütəxəssisələrini bir araya gətirən "Bakı Enerji Həftəsi" qlobal enerji təhlükəsizliyi, yeni əməkdaşlıq imkanları və regionun iqtisadi inkişafı kimi mühüm məsələlərin müzakirəsinə önəmli töhfələr verəcəkdir.

**RÖVŞƏN NƏCƏF,**
SOCAR-ın prezidenti



Özündə üç ayrı tədbiri ehtiva edən Bakı Enerji Həftəsi xarici şirkətlərin nümayəndələri ilə görüşmək, potensial investorlarla birbaşa əlaqə qurmaq üçün əlverişli imkan yaradır.

**CAVİD ABDULLAYEV,**
Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru



Əminəm ki, həmişəki kimi, sərgi bu regionun enerji sektorunun bütün əsas iştirakçılarını bir araya gətirir. Bu, neft-qaz sektoru üçün hər il keçirilən ən böyük tədbirdir. Hər kəs burada, Azərbaycanda nələrin baş verdiyini bilmək istəyir. Lakin bu sərgi hər kəsə Azərbaycanın dost və etibarlı tərəfdaş olduğunu göstərmək üçün yaxşı fürsətdir.

**METYU BRAYZA,**
Beynəlxalq ekspert,
Ceymstaun Fondunun İdarə Heyətinin üzvü

# SƏRGİNİN İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR TƏŞVİQATI VƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ İŞIQLANDIRILMASI

# MƏTBUAT KONFERANSI




**MAYIN 24-DƏ "HİLTON BAKU" OTELİNDƏ BAKI ENERJİ HƏFTƏSİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI KEÇİRİLİB.**

## MƏTBUAT KONFRANSINDA İŞTİRAK ETMİŞDİR:



**Cahid Mikayılov**
Azərbaycan Respublikası Energetika Nazirliyinin Mətbuat şöbəsinin müdiri



**Orxan Hüseynov**
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) mətbuat katibi



**Orxan Əhmədov**
"Iteca Caspian" şirkətinin satış direktoru



**Nailə Əliyeva**
Caspian Oil&Gas və Caspian Power sərgilərin layihə rəhbəri



**Aynurə Nəzərli**
Bakı Enerji Forumunun direktoru

**Mətbuat konfransında** Az TV, İtv, Səs TV, Frame.az, Report.az, Reuters, Anews, Xəzər Xəbər, Trend.az, APA Group, Bloomberg, Sputnik.az **və bir çox digər KİV nümayəndələri iştirak ediblər.**

## MEDİA DƏSTƏYİ

BAŞ İNFORMASİYA TƏRƏFDAŞI

CASPIAN ENERGY INTERNATIONAL MEDIA GROUP

NETVORKİNQ TƏRƏFDAŞI

CASPIAN ENERGY CLUB — ENERGY FOR BUSINESS

NETVORKİNQ TƏRƏFDAŞI

1NEWS.AZ · AZ TV · AZƏRTAC

İNFORMASİYA DƏSTƏYİ

Автоматизация и IT в нефтегазовой области · AZƏRBAYCAN NEFT TƏSƏRRÜFATI · Bright · Бурение & Нефть · Corrosion Protection · PETROLEUM · KazService · НЕФТЬ КАПИТАЛ · OSGP ALLIANCE · Hizmetix · THE ENERGY YEAR Information is power · TOP BUSINESS

İNTERNET DƏSTƏYİ

abc.az · apa · Caspian Barrel · iticket.az · lent.az · ona · PetrolPLAZA · RENEWABLES.AZ · ROGTEC · vesti.az

# ZİYARƏTÇİLƏRİ CƏLB ETMƏK ÜÇÜN SƏRGİLƏRİN REKLAM KAMPANİYASI













## BİRBAŞA POÇT GÖNDƏRİŞLƏRİ

- Xüsusi verilənlər bazasında poçt göndərişləri
- Dəvət vəsiqələrinin partnyorlar, dövlət qurumları və assosiasiyalar vasitəsiləpaylanması
- İxtisaslaşmış nəşrlərdə, ixtisaslaşmış veb-saytlarda və sosial şəbəkələrdə məlumatların yerləşdirilməsi

## KÜÇƏDƏ REKLAM

- PLAKATLAR
- MONITORLAR
- ROLAP
- BILBORDLAR
- BANNERLƏR

# KİV-DƏ BAKI ENERJİ HƏFTƏSİ

189 xəbər portalında
**2577** xəbər

9 radio kanalında gündəlik xəbərlər
**24** xəbər

15 qəzetdə
**114** xəbər

**82** süjet
7 kanalda

# SƏRGİ ZİYARƏTÇİLƏRİ



## 6970 unikal ziyarətçi

### CASPIAN OIL&GAS VƏ CASPIAN POWER 2023 SƏRGİLƏRİN ZİYARƏTÇİLƏRİN İXTİSASLAR ÜZRƏ BÖLGÜLƏRİ

- **20 %** • Baş mühəndislər
- **17 %** • Şirkət rəhbərləri
- **12 %** • Neft və Qaz Sektorunda Mütəxəssislər
- **10 %** • Şöbə rəhbərləri
- **9 %** • Satış menecerləri
- **6 %** • Satınalma menecerləri
- **6 %** • Şirkətlərin baş direktorlarının müavinləri
- **4 %** • Logistika menecerləri
- **3 %** • Şirkətin İnkişaf Menecerləri
- **3 %** • Marketinq Menecerləri
- **2 %** • HR menecerləri
- **2 %** • Geoloqlar
- **2 %** • Mexaniklar
- **1 %** • Tədqiqatçılar
- **1 %** • Təhlükəsizlik Menecerləri
- **1 %** • Geofizika texnoloqları
- **1 %** • İnformasiya Texnologiyaları nümayəndələri







| Şirkət | Vəzifə |
|---|---|
| ASPI Consulting Engineers, Inc. | Satış və satınalma şöbəsinin müdiri |
| Azel Systems | Biznes İnkişaf Meneceri |
| ECOTECH | Layihələrin idarə edilməsi şöbəsinin baş mütəxəssisi |
| Azerenerji OJSC | İstilik mühəndisi |
| Endress+hauser | Baş texniki xidmət mühəndisi |
| Azərişıq ASC | Satınalmalar şöbəsinin aparıcı mütəxəssisi |
| GL | Su anbarının simulyasiyası üzrə mühəndis |
| KCA Deutag Drilling GMBH | CEO |
| Caspian Drilling Company | Baş Layihə Məsləhətçisi |
| Caspian Energy Engineering LTD | Direktor |
| Emerson MMC | Sahə Satış Mühəndisi |
| Lighthouse | Direktor |
| Equinor | Baş mühəndis |
| MAN ENERGY SOLUTIONS | Satış meneceri |
| SOCAR AQS | Satış və PSCM rəhbəri |
| Halliburton | PPS Regional Meneceri |
| Nobel Energy | Layihə meneceri Regional satış meneceri, MDB |
| SAFT LLC (TotalEnergies) | Administrator |
| Bos Self | Təmir mühəndisi |
| Taghiyev OperatingCompany | Neft mühəndisi |
| SOCAR | Marketoloq |
| Technol | Aparıcı mühəndis |
| Technip Energies | Kommersiya direktoru |
| Global Oilfield Solutions MMC | Cihazlar üzrə mühəndis |
| Azerbaijan Energy Engineering and Consulting Company | Satış meneceri |

*Sərginin hər gününün sonunda iştirakçılara şirkət adları və vəzifələr ilə ziyarətçilərin siyahısı göndərilir.

# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ



Mən Azərbaycanda neft-qaz sərgisinin daimi ziyarətçisiyəm, məni hər il buraya dəvət edirlər. Bu il sərgi bütün gözləntilərimi aşdı! Əlbəttə ki, təşkilatçılara belə möhtəşəm yüksək səviyyəli tədbirə görə təşəkkür etmək istəyirəm.

**Səidə Əhmədbəyova,**
Azərbaycan Təhsil Nazirliyinin Neft-Kimya Prosesləri İnstitutu




Sərgi böyük təsir bağışlayır-çoxlu insan və iştirakçı var. Ən azı beşinci və ya altıncı dəfədir bura gəlirəm və gələcəkdə də gəlməyi planlaşdırıram.

**Yan Rostkovski,**
"DVZ-Services GMBH" şirkətinin direktoru



Tədbirin təşkili sözün əsl mənasında fantastik səviyyədədir! Bütün ziyarətçilərə olan münasibəti çox bəyəndim.

**Tsin Çju,**
satış meneceri, Zhangjiagang CIMC sanctum cryogenic equipment CO., LTD



Belə sərgilərdə iştirakı vacib hesab edirəm, çünki ölkəmizin bütün texnoloji inkişafı məhz burada nümayiş etdirilir. Sərgidə yalnız yaşlı nəslin deyil, həm də gənclərin təmsil olunmasından çox məmnunam.

**Əziz Rzayev,**
Integrated Drilling şirkətinin mütəxəssisi



Sərgi yüksək səviyyədə təşkil edilib, lakin mən marketinq vasitələri kompleksinin daha aktiv cəlb edilməsini təklif edərdim.

**Əhməd Kameş,**
NOV şirkətinin satış üzrə regional meneceri

# SƏRGİLƏRİN İŞTİRAKÇILARI

**331**
Şirkət

**38**
Ölkə

**4977 $м^2$**
Sərgi sahəsi



## İŞTİRAKÇI ÖLKƏLƏR

- ALMANİYA
- AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI
- AVSTRALİYA
- AVSTRİYA
- AZƏRBAYCAN
- BELARUS RESPUBLİKASI
- BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ
- BOLQARISTAN
- BÖYÜK BRİTANİYA
- ÇEXİYA
- ÇİN
- ƏLCƏZAİR
- FİLİPPİN
- FİNLANDİYA
- FRANSA
- GÜRCÜSTAN
- İSPANİYA
- İSRAİL
- İSVEÇ
- İSVEÇRƏ
- İTALİYA
- KANADA
- KÜVEYT
- MACARISTAN
- MONAKO
- NİDERLAND KRALLIĞI
- NORVEÇ KRALLIĞI
- ÖZBƏKİSTAN
- QAZAXISTAN
- RUMINİYA
- RUSİYA FEDERASİYASI
- SERBİYA RESPUBLİKASI
- SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI
- SİNQAPUR
- TAYLAND
- TÜRKİYƏ
- VYETNAM
- YAPONİYA

# İŞTİRAKÇILARIN ŞƏRHLƏRİ



**Fərid Qurbanov,**
“Caspian Marine Service B.V.” şirkətinin Azərbaycandakı filialının Baş icraçı direktoru

Bu sərgidə iştirak bizə öz fəaliyyətimizi nümayiş etdirməyə, təzə işgüzar əlaqələr yaratmağa və sənayemizdəki bütün yeniliklərdən xəbərdar olmağa imkan verir.



**Andrea Bellani,**
İtaliyanın "Tenaris" şirkətinin boru kəməri xidməti seqmentində regional satış meneceri (Xəzər, Qara dəniz)

Sərgidə iştirak vacibdir, çünki bölgədəki əsas iştirakçılarla görüşləri təmin edir, yeni əlaqələrin qurulmasına kömək edir.



**Mariya Yunda,**
Baş Direktor, “AZE & TUM"

Enerji həftəsi neft-qaz sənayesinin inkişafı, bərpa olunan enerji mənbələri və enerji səmərəliliyinin artırılması ilə bağlı çağırışları və aktual problemləri müzakirə etmək üçün əla platformadır.



**Hezzi Polyak (Hezzy Pollyack),**
İsrailin "Magal Solutions" şirkətinin regional satış direktoru

Sərgi bizim üçün vacibdir, çünki müştərilərimizin əhatə dairəsini genişləndirməyə kömək edə bilər.



**Anar Orucov,**
Global Energy Solutions şirkətinin baş direktorunun müavini

Sərginin yüksək səviyyədə təşkilini qeyd etmək istərdim. Ümid edirəm ki, gələcəkdə bu tədbir daha çox iştirakçıların və potensial tərəfdaşların diqqətini cəlb edəcəkdir.



**Çjan Yunçze,**
CHINT Electric şirkətinin direktoru

Sərgilərdə iştirak bazara təsir etmək, Azərbaycan bazarında brendimizin tanınmasını artırmaq, bazarı araşdırmaq baxımından böyük potensiala malikdir. Ekspozisiyalar məlumat, təcrübə mübadiləsi üçün əla vasitə olub, eyni məhsulları keyfiyyət və qiymət baxımından müqayisə etmək imkanı verir.



**Murad Sadıxov,**
MASDAR-ın regional meneceri

Şirkətimiz sərginin qızıl sponsorudur, biz artıq ikinci ildir ki, bu tədbirdə iştirak edirik. Biz verilən imkandan məmnunuq, çünki bu, özünü və imkanlarını nümayiş etdirmək üçün yaxşı fürsətdir və burada həm dövlət, həm də özəl şirkətlərin nümayəndələri ilə əlaqələr qurmaq, perspektivli işgüzar təmaslar qurmaq üçün yaxşı platformadır.



**Əsəd İsmayılov,**
"Azərişıq" şirkətinin mütəxəssisi

Bir çox digər şirkətlər kimi, sərgidə müştəri bazasını genişləndirməyi, yeni əlaqələr qurmağı nəzərdə tuturuq. Ümid edirik ki, bu fürsətdən tam istifadə edə biləcəyik, çünki sərginin miqyası və burada iştirak edən şirkətlərin sayı böyük təəssürat doğurur. Sərgilərin təşkili ən yüksək səviyyədədir.



**Marko Lovisolo,**
Ansaldo Energia, satış və marketinq üzrə baş vitse-prezident

Şirkətimizin Bakı Enerji Həftəsi 2023-də iştirakı "Ansaldo Energia" ilə yerli enerji sektoru arasında dərin əlaqəni və strateji əməkdaşlığı vurğulayır və "Ansaldo Energia"nın yerli şirkətlərlə biznes imkanlarını genişləndirmək üçün yüksək səviyyəli institusional və B2B görüşlərinin keçirilməsi üçün əla imkanlar yaradacaq.

# SESSİYALAR













## ƏLAVƏ TƏDBİRLƏR

**Biznes proqramı çərçivəsində aktual mövzularda sessiyalar keçirilib:**

- "Neft-qaz sənayesində rəqəmsallaşma və avtomatlaşdırmada yeniliklər"
- "Gələcəyə Qayıdış: Köhnə quyuların istismarı, bərpası və reabilitasiyası"
- "Kiçik və orta biznes üçün neft və qaz şirkətləri ilə təminat imkanları"
- Daimi fasilələr dövründə hərtərəfli həllərin gücü
- Memorandumun imzalanması: "Bakı Gəmiqayırma Zavodu" MMC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC və Damen Shipyards Gorinchem B.V. arasında Anlaşma Memorandumu.
- "Neft və qaz quyularının qazılmasının yeni üsulları"
- Neft və qaz sənayesində sənaye avadanlıqları üçün ehtiyat hissələri çap edən 5D printer
- Panel müzakirəsi: "Qadınlar güc və sənətdə"
- Enerji sektorunda yeni reallıqlara uyğunlaşma - qaydalar, biznes və təhsil
- İkitərəfli işgüzar görüşlər keçirilib.

# AXŞAM ZİYAFƏTİ

ƏLAVƏ TƏDBİRLƏR:




İyunun 1-də Gülüstan Sarayında Bakı Enerji Həftəsinin açılışına həsr olunmuş axşam ziyafəti keçirilib









# NAXÇIVAN ŞƏHƏRİNDƏ SƏYYAR SESSİYA













**İyunun 3-də**
**Naxçıvan şəhərində “Naxçıvanın və Şərqi Zəngəzurun Yaşıl Enerji Potensialları” mövzusunda meydandankənar görüş keçirilmişdir, onun çərçivəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çinin Energy International Group Co şirkəti arasında əməkdaşlıq sazişləri imzalanmışdır. Ltd.**

# SPONSORLAR VƏ TƏRƏFDAŞLAR

## DƏSTƏK

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ

## BAŞ TƏRƏFDAŞ

SOCAR

## TƏŞKİLATÇILAR

## QIZIL SPONSORLAR

## GÜMÜŞ SPONSOR

TÜRKİYE PETROLLERİ ANONİM ORTAKLIĞI

## BÜRÜNC SPONSORLAR

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ

## RƏSMİ MEHMANXANALAR

## STEND QURAŞDIRILMASI ÜZRƏ RƏSMİ TƏRƏFDAŞ



# QISA MƏLUMAT

29-cu Beynəlxalq

## XƏZƏR NEFT VƏ QAZ SƏRGİSİ

**4|5|6 İYUN 2024**

BAKI EKSPO MƏRKƏZİ

CASPIAN OIL&GAS

## SƏRGİ BÖLMƏLƏRİ

- NEFT VƏ YA QAZ YATAQLARININ İŞLƏNMƏSİ
- GEOFİZİKA VƏ GEOLOGİYA
- PLATFORMALAR VƏ ÜZƏN QAZMA QURĞULARI
- BORULARIN ÇƏKİLMƏSİ VƏ BORU KƏMƏRİNİN TƏHLÜKƏSİZLİK SİSTEMLƏRİNİN TƏMİN EDİLMƏSİ
- NEFT/QAZ EMALI VƏ NEFT-KİMYA
- KARBOHİDROGENLƏRİN NƏQLİ
- ENERJİ SEKTORUNDA TİKİNTİ-QURAŞDIRMA İŞLƏRİ
- NEFT VƏ QAZ ANBAR SİSTEMLƏRİNİN TƏMİN EDİLMƏSİ
- QAZ SƏNAYESİ ÜÇÜN AVADANLIQLARIN LAYİHƏLƏNDIRILMƏSİ, İSTEHSALI VƏ TEXNİKİ XİDMƏTİ
- QAZ VƏ NEFT QUYULARININ TİKİNTİSİ VƏ İSTİSMARI
- KİMYA SƏNAYESİNİN SAHƏLƏRİ
- KİMYA SƏNAYESİ ÜÇÜN XAMMAL
- KİMYA İSTEHSALI
- XÜSUSİ AVADANLIQLARIN, ÜMUMİ ƏMƏLİYYAT VƏ TƏKRARLAYICI ELEMENTLƏRİN VƏ TEXNİKİ XİDMƏT ÜÇÜN EHTİYAT HİSSƏLƏRİNİN İSTEHSALI VƏ DAHA ÇOX, O CÜMLƏDƏN MALİYYƏ VƏ HÜQUQİ XİDMƏTLƏR

**RƏSMİ DƏSTƏK**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ

SOCAR

bakuenergyweek

www.cog.az

#CaspianOilandGas

CaspianOilGas



# QISA MƏLUMAT

CASPIAN POWER

**4 | 5 | 6 İYUN 2024**

BAKI EKSPO MƏRKƏZİ

12-Cİ XƏZƏR BEYNƏLXALQ

# ENERGETİKA VƏ YAŞIL ENERJİ SƏRGİSİ



## SƏRGİ BÖLMƏLƏRİ

### Enerji və Elektrik Mühəndisliyi

- Enerji Mühəndisliyi
- Elektrik avadanlıqları
- Elektrik, istilik, qaz təchizatı sistemləri
- Mənzil və kommunal xidmətlər üçün avadanlıq və mexanizmlər
- Ölçmə və nəzarət sistemləri və vasitələri
- Avtomatlaşdırılmış prosesə nəzarət sistemləri
- Proqram təminatı
- Enerji səmərəli və enerjiyə qənaət edən texnologiyalar və avadanlıqlar
- Elektrik qurğularının təhlükəsizliyi və ekoloji təhlükəsizlik

### Bərpa olunan enerji mənbələri

- Bioenerji
- Külək enerjisi
- Hidrogen enerjisi
- Geotermal enerji
- Hidroenergetika
- Günəş enerjisi

### Kabel və məftil məhsulları

- Kabel
- Tel
- Birləşdirici fitinqlər, izolyasiya materialları və digər əlaqəli materiallar
- Kabel və məftil məmulatlarının çəkilməsi və quraşdırılması texnikası

### İşıqlandırma

- Müxtəlif sənaye sahələrinin sənaye obyektlərinin işıqlandırılması
- Küçələrin, yeraltı keçidlərin, yol qovşaqlarının, magistral yolların işıqlandırılması
- İşıq mənbələri, LEDlər
- İşığa nəzarət sistemləri və işıq ölçmə cihazları

**www.caspianpower.az**

#CaspianPower

CaspianPower

bakuenergyweek

## RƏSMİ DƏSTƏK

Azərbaycan Respublikası Energetika Nazirliyi

Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi

«Azərenerji" ASC

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

·Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK)

4 | 5 | 6 İYUN 2024

# BAKU ENERGY WEEK



CASPIAN OIL&GAS

www.cog.az

CASPIAN POWER

www.caspianpower.az

BAKU ENERGY FORUM

www.bakuenergyforum.az

**www.bew.az**

ITECA CASPIAN · icas · ceo caspian event organisers · caspian event management

Təşkilatçı:

Tel. : +994 12 404 10 00
Mob. : +994 77 277 70 27
E-mail: oilgas@iteca.az